Bülleten No: 36 / dekabr 2015

Elektron Hökumət Portalı
your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

DEKABR 2015

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



# "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1308-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1308-IVQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** üç ay müddətində:

**1.1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.1.2.** həmin Qanunun pozulmasına görə məsuliyyət müəyyən edən qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.1.3.** həmin Qanunun 7.2-ci maddəsinə uyğun olaraq, dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması qaydasını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.1.4.** həmin Qanunun 13.2-ci maddəsinə uyğun olaraq, dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi qaydasını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.1.5.** həmin Qanunun 5.8-ci maddəsinə uyğun olaraq, ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

**1.1.6.** həmin Qanunun 15.3-cü maddəsinə uyğun olaraq telefon müraciət xidməti vasitəsilə şifahi müraciətlərin edilməsi, qəbulu, qeydiyyatı və cavablandırılması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

**1.1.7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

**1.2.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki:

**2.1.** "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 7.2-ci, 12.7-ci və 13.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**2.2.** həmin Qanunun 5.8-ci və 15.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

**2.3.** həmin Qanunun 13.1-ci maddəsində nəzərdə tutulmuş səlahiyyətləri Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirir.

**3.** "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 12.7-ci maddəsində nəzərdə tutulmuş məlumata dövlət orqanının qanunazidd qərarları və onun vəzifəli şəxsinin qanunazidd hərəkətləri (hərəkətsizliyi) barədə məlumatlar da daxil edilir.

**4.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 noyabr 2015-ci il.***

www.e-gov.az

# Prezident İlham Əliyev "BakuTel-2015" sərgisi ilə tanış olub

Prezident İlham Əliyev dekabrın 2-də Bakı Ekspo Mərkəzində "BakuTel-2015" XXI Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi ilə tanış olub.



**Dövlətimizin başçısına məlumat verildi ki, dekabrın 5-dək davam edəcək "BakuTel-2015" beynəlxalq sərgisində 200-dən artıq şirkət iştirak edir. Yeni şirkətlərin diqqətini cəlb edən sərgidə bu il debütantların sayı iştirakçıların ümumi sayının 15 faizini təşkil edir.**

Sonra Prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu.

Dövlətimizin başçısı əvvəlcə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin stendinə baxdı. Burada Prezident İlham Əliyevə "Elektron hökumət" portalı və Data Mərkəzi barədə ətraflı məlumat verildi. Bildirildi ki, 2012-ci ildən fəaliyyətə başlayan "Elektron hökumət" portalı artıq özündə 80-dən artıq qurumu birləşdirir. Hazırda 45 qurum tərəfindən 432 elektron xidmət, 220-dən artıq elektron ödəniş olmaqla, vətəndaşlara ümumilikdə 650-dən artıq elektron xidmət göstərilir. 35 qeyri-dövlət qurumu da portala qoşularaq bu xidmətlərdən yararlanır. Son iki il ərzində istifadəçilərin sayı 10 dəfə artaraq 2,5 milyona çatıb. Ötən ildən elektron arayışların verilməsinə də başlanılıb.

Azərbaycan Prezidentinə Data Mərkəzi barədə də məlumat verildi. Bildirildi ki, "bulud" texnologiyası əsasında regionda birinci olan Data Mərkəzi artıq istismara tam hazırdır. Mərkəzin istifadəyə verilməsini şərtləndirən sertifikatlaşdırma prosesi artıq tamamlanıb. Avropa Nüvə Tədqiqatları Təşkilatının apardığı elmi tədqiqatların nəticələrinin bu Data Mərkəzində saxlanılması və istifadə olunması ilə bağlı razılaşma var. Data Mərkəzinin istifadəyə verilməsi ölkədə "Elektron hökumət"in genişlənməsinə, həm dövlət, həm də qeyri-dövlət orqanlarının informasiya məlumatlarının saxlanılmasına imkan verəcək.

Prezident İlham Əliyevə "Google"un yeni platforması barədə məlumat verildi. "Cultural Institute" adlanan platforma dünyanın bütün muzeyləri, sərgiləri və maraqlı, mədəni görməli yerlərini əhatə edir. Məlumat verildi ki, ilk olaraq Azərbaycanın üç muzeyi platformaya daxil edilib. Bunlar Xalça, Milli İncəsənət və Musiqi Mədəniyyəti muzeyləridir. Ümumilikdə bu üç muzey üzrə minədək eksponat platformada təqdim ediləcək. "Google" bu platforma üzrə Azərbaycan ilə əməkdaşlığı davam etdirmək niyyətindədir.

Dövlətimizin başçısına CERN - Avropa Nüvə Tədqiqatları Təşkilatının məqsədi və funksiyaları barədə də məlumat verildi. Bildirildi ki, CERN-də çalışan fiziklər və mühəndislər Yer kürəsinin fundamental quruluşunu öyrənirlər. Onlar materiyanın tərkibinin - əsas elementar hissəciklərinin tədqiqi üçün dünyanın ən böyük və ən mürəkkəb elmi alətlərindən istifadə edirlər. 1954-cü ildə təsis edilmiş CERN laboratoriyası Cenevrə şəhərinin yaxınlığında yerləşir. Hazırda 21 dövlətin üzv olduğu təşkilat Avropanın ilk birgə müəssisələrindən biridir.

Sərgidə Birləşmiş Ərəb Əmirliklərinin Dubay Əmirliyi İqtisadi İnkişaf Nazirliyinin İxrac İnkişaf Korporasiyası ("Dubai Exports") ilə təmsil olunur.

Prezident İlham Əliyevə "Dubai Exports"un gələcək planları və məqsədləri barədə məlumat verildi. Bildirildi ki, "Dubai Exports" qarşısına innovasiya ilə inkişaf məqsədini qoyub. "BakuTel" sərgisinə ilk dəfə qatılan "Dubai Exsports" ümumilikdə ölkəmizdə keçirilən müxtəlif səpkili sərgilərdə artıq üç ildir iştirak edir.

Prezident İlham Əliyev "Azərkosmos" ASC-nin stendi ilə də tanış oldu. Məlumat verildi ki, Qafqazda yeganə peyk operatoru olan "Azərkosmos" ASC telekommunikasiya və coğrafi kəşfiyyat sahələri üçün yüksək keyfiyyətli peyk xidmətləri təqdim edir. Dünyanın peyk xidmətləri üzrə aparıcı şirkəti olan "İntelsat" ilə "Azərkosmos" ASC-nin uzunmüddətli razılaşmasına əsasən, 45 dərəcə Şərq uzunluğu orbital mövqeyində yerləşəcək "Azerspace-2" Afrika, Avropa, Asiya və Yaxın Şərq regionlarını əhatə edəcək. "Azerspace-2" "Azərkosmos"un sayca ikinci telekommunikasiya peyki olmaqla yanaşı, "Azerspace-1"in əhatə zonasını genişləndirərək Avropa, Mərkəzi və Cənubi Asiya, Yaxın Şərq və Tropik Afrikada ödənişli televiziya, hökumət strukturları üçün rabitə və şəbəkə xidmətlərinə artan tələbatı ödəyəcək.

"BakuTel-2015" sərgisi çərçivəsində "Azerspace-2" peykinin orbitə çıxarılması barədə "Azərkosmos" ASC ilə Fransanın "Arianespace" şirkəti arasında müqavilə imzalandı. Prezident İlham Əliyevin iştirakı ilə imzalanan müqaviləyə əsasən, "Azerspace-2" peykinin 2017-ci ildə Fransanın "Ariane-5" raketi ilə Fransız Qvianasından orbitə çıxarılması nəzərdə tutulub.

Dövlətimizin başçısına "Kaspersky" şirkəti barədə də məlumat verildi. Bildirildi ki, şirkət artıq 18 ildir 33 ölkənin informasiya-kommunikasiya texnologiyaları bazarlarına informasiya təhlükəsizliyinin təmin edilməsi üzrə məhsullarını təqdim edir. Şirkətin məhsulları arasında kompyuterlərin təhlükəsizliyi, şəbəkələrin, elektron ünvan serverlərinin, mobil avadanlığın, fayl serverlərinin kiberhücumlardan qorunması üzrə xidmətlər yer alır. Sərgidə ilk dəfə iştirak edən "Kaspersky"nin Azərbaycanda nümayəndəliyi fəaliyyət göstərir.

Prezident İlham Əliyev "Formula-1" Avropa Qran-pri yarışının stendi ilə də tanış oldu. Qeyd edildi ki, gələn il Bakının ilk dəfə ev sahibliyi edəcəyi yarış milyonlarla televiziya tamaşaçısının diqqətini bir daha ölkəmizə yönəldəcək. Dünya üzrə məşhur pilotlar UNESCO-nun Dünya İrsi Siyahısına daxil olmuş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, Xəzər sahili boyu və müasir göydələnlərin əhatə etdiyi ərazidə yarışacaqlar. "Formula-1" Bakı Qran-prisinin promouter şirkəti olan "Bakı Şəhər Halqası" bu mötəbər turnirin yüksək səviyyədə keçirilməsi ilə bağlı hazırlıq işlərinə artıq başlayıb.

Çinin "Huawei" şirkəti də sərgidə geniş təmsil olunur. Yüksək texnoloji məhsullar istehsal edən "Huawei" dünyanın ən böyük 100 şirkətindən biridir. Şirkətin bir çox ölkələrdə, o cümlədən Azərbaycanda nümayəndəliyi fəaliyyət göstərir. "Huawei" artıq 15 ildir ki, Azərbaycanda öz xidmətlərini təklif edir. Onlar əsasən internet operatoru və korporativ xidmətlərdir. Şirkət ölkəmizin aparıcı mobil operatorları ilə əməkdaşlıq edir. "Huawei"in məhsulları arasında planşet, mobil telefon, şəbəkə, informasiya-kommunikasiya texnologiyaları avadanlığı və stasionar kameralar da sərgilənir. Şirkət ölkəmizdə "Huawei-Azərbaycan" adı ilə fəaliyyət göstərir.

Prezident İlham Əliyevə Sumqayıt Texnologiyalar Parkında yeni istehsal edilən məhsullar barədə də məlumat verildi. Onların arasında kommunikasiya dolabları, ödəniş terminalları, infoköşk, rabitə, internet, elektrik kabelləri var. Məhsulların hamısı yüksək keyfiyyəti ilə seçilir. Sumqayıt Texnologiyalar Parkı müxtəlif istehsalat sahələri üzrə ixtisaslaşmış nəhəng zavodlar kompleksidir. Regionda nadir layihə olan STP Azərbaycanın həm daxili, həm də xarici bazarının tələbatını tam ödəmək qabiliyyətinə qadirdir.

Dövlətimizin başçısı SAP şirkətinin stendinə də baxdı. Şirkət 1972-ci ildə Almaniyada təsis olunub. Proqram təminatı və biznes həllərinin istehsalçısı olan SAP-ın 190 ölkədən 290 min müştərisi var. Şirkət yeni nəsil məlumatlar bazası, proqram təminatları ilə dünya bazarının liderlərindəndir. Şirkətin gələn il Azərbaycanda rəsmi ofisin açılışı nəzərdə tutulub. SAP sərgidə "Smart Azərbaycan" layihəsi üçün innovativ texnologiyaları təqdim edir. Bunlar İnnovativ Liman Logistikası, İnnovativ Energetika, İnnovativ Kənd Təsərrüfatı, Hava Daşımalarının İnteraktiv İdarəedilməsidir.

Prezident İlham Əliyev ABŞ-ın "CISCO Systems" şirkətinin stendi ilə də tanış oldu. Şirkət internet texnologiyalarının, şəbəkələrin təhlükəsizliyi, videokonfrans, IP-telefoniya sistemlərinin, "Internet of everything", simsiz şəbəkə, data mərkəzlər həllərinin istehsalında dünya lideridir.

Sonra dövlətimizin başçısına kiber təhlükələr və onların idarə edilməsi sistemi barədə məlumat verildi. Dünyada real zamanda baş verən kiber hücumlar, Avropa və Azərbaycan üzrə spam aktivliyinin vəziyyəti barədə məlumat diqqətə çatdırıldı.

"BakuTel-2015"in iştirakçıları arasında aparıcı informasiya-kommunikasiya texnologiyaları şirkətləri, Azərbaycanın mobil rabitə operatorları, internet provayderləri, sistem inteqratorları və tanınmış brendlərin distribüterləri yer alıb. Ənənəvi olaraq, sərgidə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə bir sıra ölkələrin milli stendləri təqdim olunur. Sərgidə informasiya texnologiyaları sahəsi üzrə yeni nəsil və milli genişzolaqlı internet üzrə həll variantları, 4-5G mobil texnologiyalar, fiber-optik və "bulud" texnologiyaları üzrə xidmətlər, "Elektron hökumət", "Smart Azərbaycan" layihələri üçün yeni texnologiyalar, eləcə də informasiya təhlükəsizliyi yer alıb.

BMT, Beynəlxalq Telekommunikasiya İttifaqı və Rabitə sahəsində Regional Birlik kimi beynəlxalq təşkilatların dəstəyi, eləcə də Dünya Sərgi Sənayesi Assosiasiyası tərəfindən sərgiyə verilmiş keyfiyyət nişanı "BakuTel"in beynəlxalq nüfuzunu bir daha təsdiq edir. Sərgidə "startap" şirkətlərinə iş üçün xüsusi yer ayrılıb. Sərginin təşkilatçıları qismində "Iteca Caspian" və "Caspian Event Organisers" şirkətləri çıxış edir.

Azərbaycan Prezidentinin Sərəncamı ilə 2015-ci ildə yaradılan Mingəçevir Yüksək Texnologiyalar Parkı artıq uğurlu fəaliyyətə başlayıb. Sərgidə bu Parkın ilk rezidenti olan "HTECH Invest" şirkəti də iştirak edir. "HTECH Invest"in əsas məqsədi dünyanın tanınmış informasiya texnologiyaları şirkətlərinin məhsullarının Azərbaycanda yığılmasını təmin etməkdir. Hazırda "ACER" şirkəti ilə danışıqlar başa çatmaq üzrədir. İlk məhsul 2016-cı ilin fevralında istehsal ediləcək. "ACER" şirkəti dünyanın beş ən nüfuzlu informasiya texnologiyaları şirkətindən biridir.

www.mhm.az

# "Bakutel 2015" 21-ci Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya texnologiyaları sərgisi bu il də böyük maraqla qarşılandı

İKT üzrə ən iri ixtisaslaşmış tədbir - "Bakutel 2015" 21-ci Azərbaycan Beynəlxalq "Telekommunikasiya və İnformasiya texnologiyaları" sərgisi dekabr ayının 2-dən 5-dək Bakı Ekspo mərkəzində keçirilib. Keçirildiyi illər ərzində "Bakutel" sərgisi informasiya texnologiyaları üzrə yeni məhsul və xidmətlərin nümayiş etdirildiyi əsas meydança kimi, möhkəm əlaqələrin qurulduğu və yeni müəssisələrin təsis olunduğu əsas biznes-platformaya çevrilmişdir. Son bir neçə ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bakutel" sərgisini ziyarət etməsi isə bu tədbirin yüksək statusunu bir daha sübut edir. Təsadüfi deyildir ki, hazırda yeni texnologiyalar bazarında mövqeyə sahib olan bir sıra şirkətlər öz inkişaf yoluna məhz Bakuteldə başlamışdır.

Sərgi hazırda qlobal informasiya mühitinə inteqrasiyaya, İKT üzrə milli məhsulların istehsalına və müasir informasiya-kommunikasiya infrastrukturunun yaradılmasına münbit şərait yaratmaqla yanaşı, həm də ölkədə İKT-nın inkişafı üzrə proqramların həyata keçirilməsinin göstəricilərindən biridir.

Dünyanın 21 ölkəsindən 203 şirkətin iştirak etdiyi bu sərgidə Azərbaycan, Belçika, Almaniya, Çin, BƏƏ, Rusiya, ABŞ, Türkiyə, Fransa və Yaponiya da daxil olmaqla, dünyanın aparıcı İKT şirkətləri, mobil rabitə operatorları, internet provayderlər, sistem inteqratorları və məşhur brendlərin distribütorları yer almaqdadır.

Onu da qeyd edək ki, yeni şirkətlərin diqqətini cəlb edən sərgidə bu il debütantların sayı iştirakçıların ümumi sayının 15%-ni təşkil edir və onların əksəriyyəti Azərbaycanın İKT bazarına böyük maraq göstərən xarici şirkətlərdir. Beləliklə, bu il sərgidə ilk dəfə olaraq "AVAYA", "Google", "Laboratoriya Kasperskoqo" və digər aparıcı dünya şirkətləri iştirak ediblər.

Artıq bir neçə ildir ki, sərgidə öz yeniliklərini nümayiş etdirən "Elektron Hökumət Portalı" bu il də bir çox yenilikləri iştirakçılara nümayiş etdirir. 2012-ci ildən fəaliyyətə başlayan "Elektron hökumət" portalı artıq özündə 80-dən artıq qurumu birləşdirir.

## "Elektron Hökumət" portalı üzrə bəzi statistik göstəriciləri nəzərinizə çatdırmaq istərdik. Belə ki,

2013-2015-ci illər ərzində portalda təqdim olunmuş elektron xidmətlərdən **2 625 179** istifadəçi faydalanıb:




2013-2015- ci illər ərzində "Elektron Hökumət" portalında yerləşdirilmiş e-xidmətlərin sayı barədə statistik göstəriciyə əsasən portala inteqrasiya olunan xidmətlərin sayında da xeyli artım müşahidə olunur:




2013-2015-ci illər ərzində "Elektron Hökumət" portalında yerləşdirilmiş e-xidmətlərdən istifadə sayının statistik diaqramına nəzər salsaq görərik ki, 01.10.2015-ci il tarixə elektron xidmətlərdən 17562513 dəfə istifadə olunub:




Aşağıdakı diaqrama nəzər salsaq, görərik ki , elektron imza sertifikatlarına tələbat durmadan artmaqdadır



Portal vasitəsilə təqdim edilən 11 elektron arayış sərgi iştirakçıların diqqətini xüsusilə cəlb edib. Qeyd edək ki, həmin arayışlar müxtəlif qurumlar tərəfindən vətəndaşlardan ən çox tələb olunan arayışlardır və bu arayışların vətəndaş tərəfindən əldə edilməsi bəzən sutkalarla vaxt tələb edirdi.

Bu arayışların elektron formada tətbiqi vaxta qənaətlə yanaşı süründürməçiliyin qarşısını alacaq, bürokratik maneələri aradan qaldıracaq və lazımsız kağız itkisini əngəlləyəcəkdir. Eyni zamanda portal vasitəsilə dövlət qurumlarının vəzifəli şəxslərinin qəbuluna onlayn yazılmaq, onlayn müraciətlər göndərmək və portal vasitəsilə onları izləmək imkanları kimi bir sıra innovativ e-xidmətlərlə sərgidə əyani tanış olmaq mümkündür.

Sərgidə vətəndaşlara "Elektron Hökumət" portalına daxil olmaq üçün tələb olunan kod/parollar mobil versiyada paylanılır. Bundan əlavə sərgidə fəal iştirakçılara e-imza kartlarının pulsuz paylanılması və bir sıra kampaniyalar və viktorinalar keçirilmişdir.

# "Elektron Hökumət" portalında daha bir yenilik

**Son dövrlərdə elektron arayışlar(çıxarışlar) portalda ən çox istifadə olunan xidmətlərdəndir. Buna görə də sosial tələbatın çox olduğu elektron çıxarışların əhatə dairəsi getdikcə genişlənir. Artıq "İl ərzində rabitə xidmətləri üzrə ödənişlər haqqında arayış"ı "Elektron Hökumət" portalında formalaşdırmaq mümkündür. Sözügedən arayışda istifadəçinin il ərzində rabitə xidmətləri üzrə aparılan ödənişlər əks olunur.**

Qeyd edək ki, "İl ərzində rabitə xidmətləri üzrə ödənişlər haqqında arayış"ı həm qısa, həm də geniş formada əldə etmək mümkündür. Arayışda vətəndaşa aid bir sıra fərdi məlumatlar: telefon nömrəsinə aid ünvan, telefon nömrəsinin aid olduğu Telefon Qovşağı, müqavilənin bağlanıldığı tarix, cari borc barədə məlumatlar da öz əksini tapır. Buna görə də, elektron çıxarışı əldə etmək üçün ilk olaraq "Elektron Hökumət" portalında (e-gov.az) qeydiyyatdan keçmək lazımdır. "İl ərzində rabitə xidmətləri üzrə ödənişlər haqqında arayış"ı portalda qeydiyyatdan keçdikdən sonra "Elektron çıxarışlar" (arayışlar) bölməsinə daxil olaraq formalaşdırmaq mümkündür.

Bildiyiniz kimi, indiyədək portal vasitəsilə 10 adda elektron çıxarışlar vətəndaşlar tərəfindən istifadə olunurdu. Beləliklə, artıq portal üzərindən 11 növ elektron arayışı formalaşdıraraq çap etmək, yaxud elektron şəkildə aidiyyatı quruma göndərmək mümkün olacaq.

Sənədləşmə prosesinin və istifadəçilərin kağız yükündən azad olmasına xidmət edən bu təşəbbüs ölkədə ilk dəfə "Elektron Hökumət" portalı tərəfindən göstərilmişdir. Vətəndaşa aid məlumatların elektronlaşdırılması təkcə kağız yükünün aradan qaldırılmasına xidmət etmir, həmçinin gələcəkdə bir sıra elektron müraciətlərin icrası zamanı belə məlumatların sistem tərəfindən avtomatik emal olunaraq nəzərə alınmasını da mümkün edəcək.

"Elektron Hökumət" portalı şəxsiyyətin daha dəqiq və ətraflı identifikasiya sistemini (identity score) formalaşdırır. "Elektron Hökumət" portalı vətəndaş barədə dəqiq və ətraflı məlumatları özündə əks etdirən vahid informasiya sisteminə çevrilməkdədir.

Beləliklə, portal vasitəsilə vətəndaşlar özlərinə məxsus məzmunca yeni növbəti elektron çıxarışı (arayış) istifadə edə biləcək. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə aid olan bu çıxarışda vətəndaşa məxsus stasionar telefonlar vasitəsilə təqdim edilən rabitə xidmətləri (aylıq abunə haqqı, şəhərlərarası və beynəlxalq danışıqlar, müxtəlif servislər internet xidmətləri və s.) üzrə son 12 ay ərzində hesablanmış və ödənilmiş məbləğ avtomatik sistem tərəfindən formalaşdırılacaq.



**Bu xidməti ətraflı təhlil etsək,**

ilk növbədə bu növ məlumatlar vətəndaşın ödəyicilik qabiliyyətini müəyyən etməyə imkan verən qiymətləndirmə sisteminin tərkibidir. Sual oluna bilər ki, subyektin il ərzində xidmətlər üzrə apardığı ödənişlər cədvəl şəklində təqdim edilə bilər. Ancaq bir məqam da var ki, bu çıxarış həm də şəxsiyyətin fərdi keyfiyyətlərini xarakterizə etməyə imkan verir.

Beləki, günümüzdə fərdə aid məlumatların saxtalaşdırılması və ya şəxsi məlumatlarla iş zamanı yol verilən səhvlər bir çox sahələrdə xüsusən maliyyə müəssisələri, banklar, kredit təşkilatlarının və s. xeyli zərər çəkməsinə səbəb olur.

**Bu istiqamət üzrə dünya təcrübəsinə nəzər saldıqda,** maliyyə müəssisələri saxta məlumatların aşkarlanması üçün xüsusi biznes və müştəri identifikasiya sistemlərindən istifadə edir. Bu sistem fərdin müəyyən edilməsi üçün geniş həcmli istehlakçı (müştəri) məlumatlarını özündə birləşdirir. İdentifikasiya əlamətləri üzrə komponentlərə şəxsi identifikatorlar (fərdi məlumatlar), sosial məlumatlar, internet məlumatları, hökumət məlumatları, empirik məlumatlara əsaslanan təxmini davranış nümunələri, özünü qiymətləndirmə nümunələri və kredit məlumatları daxildir. Tətbiq olunan identifikasiya sistemləri müxtəlif mənbələrdən toplanılmış məlumatlar üzərində hazırlanır. Belə məlumatlar ümumilikdə üç kateqoriyaya bölünə bilər: Ümumi məlumatlar, Şəxsi məlumatlar və Kredit məlumatları.

**Elektron Hökumət" portalı mövcud informasiya resurslarını nəzərə alaraq bu istiqamətdə daha innovativ həll təklif edir.**

www.e-gov.az

Yuxarıda qeyd edildiyi kimi, RYTN tərəfindən tətbiq olunan çıxarış bu sahədə bir ilk olmaqla digər qurumlar üçün də nümunə və həmişə olduğu kimi çağırış olacaqdır. Sözügedən arayışın timsalında digər xidmət və rüsumların ödənişlərini həyata keçirən dövlət və qeyri dövlət təşkilatlarımız da bu nümunəyə qoşularaq xidmət haqqının hesablanmış məbləğləri və ödənişləri haqda uyğun servisləri hazırlayaraq "Elektron Hökumət" portalına təqdim edə bilər.

Bu təşəbbüslər zamanla hüquqi və fiziki şəxslərimizin "fərdi keyfiyyətlərini müəyyən etməyə imkan verən" vahid identifikasiya sisteminin (Identity score) formalaşdıracaq.

Bu ideya ƏƏSMN –nin VEMTAS layihəsi çərçivəsində yaranmışdır. Bildiyiniz kimi, ünvanlı dövlət sosial yardımın ayrılması üçün vətəndaşa ailə üzvlərinin bütün kommunal və kütləvi ödənişlər üzrə son 12 ayda apardığı əməliyyatların vətəndaş tərəfindən təqdim edilməsi tələb olunur. Mövcud informasiya resurslarından faydalanaraq bu tələbin aradan qaldırılması və bu növ məlumatların avtomatik sistem tərəfindən formalaşması mümkündür. Hazırda, bir sıra qurumlarla artıq bu istiqamətdə kifayət qədər iri həcmli işlər aparılır.

**Digər nöqteyi-nəzərdən, təsəvvür edin biznes təklifi ilə üz-üzəsiniz və ya qarşınızda işə götürmək istədiyiniz cavan bir mütəxəssis, lakin tərəddüdləriniz və şübhələriniz var. Əsassız deyil qarşınızda heç tanımadığın biri dayanıb. Nə etməli?!**

Identity score yəni identifikasiya sistemi sizə subyekti qiyabi olaraq tanımağa imkan yaradacaqdır, etibar etmək olar, inanmaq olar, güvənmək olar. Bundan sonrası daha asandır.

Şəxsi məlumatlar barədə ən dəqiq və dolğun informasiyanı özündə birləşdirən "Elektron Hökumət" portalı bu istiqamətdə fəaliyyətini hər ötən gün genişləndirir. Belə məlumatlar müxtəlif dövlət qurumlarının informasiya sistemindən toplanır və istifadəçi tələblərinə uyğun portalda əksini tapır. Portalda vətəndaş barədə toplanan informasiyalar, informasiyanın dəqiqliyi müxtəlif mənbələr üzrə dəfələrlə yoxlanılır. Bu baxımdan, cari ildə istifadəçi/istehlakçı (abunəçi) məlumatlarının təşkili üzrə bir neçə qərar qəbul olunmuşdur. Artıq istehlakçı/müştəri məlumatların dəqiqliyi "Elektron Hökumət" portalı üzərindən yoxlanılır və bəzi sosial xidmətlərin icrası məhz fərdi məlumatlar portal tərəfindən təsdiqləndikdən sonra mümkündür.

Sevindirici haldır ki, RYTN MHM–də illər əvvəl müzakirəsi belə çətinliklə qəbul olunan ideyalarımız bu gün reallaşmış və cəmiyyətə töhfəsini verməkdədir.

Bu gün bu layihəyə "Elektron Hökumət" portalının operatoru olaraq ilk MHM başladı, ümid edir ki, bu təşəbbüsə tezliklə digər qurumlar da qoşularaq vahid identifikasiya sisteminin formalaşmasını sürətləndirəcək.

## Elektron xidmət növlərinin siyahısına Əmlak Məsələləri Dövlət Komitəsinin 7 yeni e-xidməti əlavə olunub



**Nazirlər Kabineti "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklər edib.**

Nazirlər Kabinetinin rəsmi saytına istinadən verdiyi məlumata görə, dəyişikliyə əsasən, elektron xidmət növlərinin siyahısına Əmlak Məsələləri Dövlət Komitəsinin 7 yeni e-xidməti əlavə olunub.

Bu xidmətlərə "Torpaq kadastr məlumatları barədə arayışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu", "Torpaq kadastr məlumatlarının hazırlanması və kadastr xidmətlərinin göstərilməsi üçün müraciətin və sənədlərin qəbulu", "Müxtəliftəyinatlı xəritə və atlasların tərtibatı və nəşri üçün müraciətin və sənədlərin qəbulu", "Yerquruluşu işlərinin, torpaq və geobotaniki tədqiqatların aparılması, bonitirovka xəritələrinin hazırlanması üçün müraciətin və sənədlərin qəbulu", "Torpaq kadastr xəritələrinin və CİS üçün baza xəritələrinin tərtibi ilə əlaqədar müraciətin və sənədlərin qəbulu", "Ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması üçün müraciətin və sənədlərin qəbulu" və "Bələdiyyələrin xəritələrinin hazırlanması üçün müraciətin və sənədlərin qəbulu" daxildir.

Qeyd edək ki, bu elektron xidmətləri Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (DTXK) göstərib. Prezident İlham Əliyevin məlum fərmanı ilə DTXK ləğv edilərək komitənin dövlət torpaq kadastrı, yerquruluşu, geodeziya, torpaq bazarının təşkili, dövlət torpaq reyestrini aparmaq, bələdiyyələrin elektron daşıyıcıda və kağız üzərində xəritəni, habelə rübdə bir dəfə bələdiyyələrin hüdudları daxilində dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələrində baş vermiş dəyişikliklər barədə arayışı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim etmək sahəsindəki funksiyaları Əmlak Məsələləri Dövlət Komitəsinə verilib.

Bunun nəticəsi olaraq adıçəkilən elektron xidmətlərin təchizatçısı kimi ƏMDK müəyyən olunub.

# "E-Gov identity" Elektron Hökumət portalına girişi daha da sadələşdirəcək

"Elektron Hökumət" Portalının Operatoru vətəndaşların portaldan istifadəsini asanlaşdırmaq və sadələşdirmək məqsədilə daha bir autenfikasiya vasitəsini, "E-gov identity"-ni vətəndaşların istifadəsinə verdi.

Belə ki , "E-Gov identity" bir identifikasiya növü kimi sistemə sadələşdirilmiş, təhlükəsiz və rahat girişi təmin etmək üçün nəzərdə tutulmuşdur. "E-gov identity"ni aktivləşdirmək üçün sadəcə "Elektron hökumət" portalına daxil olmağınız və nəzərdə tutulmuş xidmətdən yararlanmağınız kifayətdir. Bunun üçün, portala giriş etmək, şəxsiyyət vəsiqəsi üzrə qeydiyyatda olan mobil telefon nömrəsini aktivasiya vasitəsilə xidmətə qoşmaq lazımdır. Qeyd edək ki, vətəndaşın adına təyin edilmiş mobil telefon nömrəsinə yalnız bir ədəd FİN (Fərdi İdentifikasiya Nömrəsi) qoşmaq mümkündür. Amma, bir FİN-i bir neçə mobil telefon nömrəsinə qoşmaq mümkündür.

**"E-gov identity" sisteminin bir sıra üstünlükləri vardır:**

**"E-gov identity"in əsas üstünlüyü** Elektron Hökumət kimi böyük bir layihənin imicini kifayət qədər yüksəkdə saxlamasıdır. Sistem istifadəyə verildikdən sonra bir çox (hesab.az asanpay.az v.s kimi) FİN ilə işyələn portallar sistemi öz autentifikasiya vasitələri kimi inteqrasiya edə biləcəklər. Həmçinin müxtəlif dövlət qurumları, elektron xidmətlər də mövcud sistemdən yararlana biləcəklər. Buda kütləvi istifadə edilən layihələrdə elektron hökumətin imzası ilə girişi təmin edəcək bir imic yaradacaqdır.

**Elektron şəkildə xidmətə qoşulma** – vətəndaşlar birbaşa "Elektron Hökumət" portalına daxil olaraq adlarına qeydiyyatda olan mobil telefon nömrələrini aktivasiya vasitəsilə xidmətə qoşa biləcəklər. Nəzərə almaq lazımdır ki, portala girişi təmin etmək üçün sadələşdirilmiş bir çox autentifikasiya vasitəsi vardır ki, vətəndaş bunların hər hansı birindən istifadə edərək portala daxil ola bilər və yaradılmış xidmət vasitsəilə "e-identity"yə qoşula bilərlər.

**Heç bir fiziki müraciət olmadan** – vətəndaşlar heç bir fiziki müraciət etmədən elektron formada mobil identifikasiya vasitəsinə qoşula biləcək və daha sonra istər e-gov portalına, istərsə də digər xidmətin inteqrasiya edilən portallara giriş edə biləcəklər.

**İdentifikasiya rahatlığı** – sistemə giriş üçün sadəcə qeydiyyatdan keçirilmiş mobil telefon nömrəsi və sistemin Sizə təyin etdiyi və ya daha sonra özünüz dəyişdirdiyiniz identifikasiya kodunu yazaraq qarşınıza çıxan aktivasiya kodunu SMS vaistəsilə identifikasiya etməyiniz kifayət edir ki, sistemə giriş edəsiniz.

**İdentifikasiya kodunu unutduqda** – sadəcə təkrar elektron hökumət portalına istənilən autentifikasiya vasitəsilə giriş etməyiniz kifayətdir. Müəyyən edilmiş paneldən pin kodu unutdum düyməsini seçərək təkrar identifikasiya kodunu SMS vasitəsilə əldə edə bilərsiniz.

**İdentifikasiyanın ləğvi** – portala istənilən autentifikasiya vasitəsilə daxil olaraq istədiyiniz adınıza qeydiyatda olan mobil tel. nömrəsini "e-gov identity" xidmətindən ləğv edə bilər və daha sonra təkrar qoşula bilərsiniz.

*Hesab edirik ki, "E-Gov identity" sisteminin tətbiqi "Elektron Hökumət" portalına girişi daha da sadələşdirəcək və elektron xidmətlərdən istifadə sayına da öz təsirini göstərəcək.*

# Əmək müqaviləsi üzrə bildirişlər "Elektron Hökumət" portalı vasitəsilə əlçatandır

**"Fərdi məlumatlar haqqında Qanun"un tələblərinə uyğun olaraq, dövlət qurumlarının mülkiyyətində olan bir çox informasiya ehtiyatlarında vətəndaşlar haqqında toplanmış fərdi məlumatlar hazırda vətəndaşlara açıq edilmişdir və fərdə aid müxtəlif məzmunlu informasiyalar "Elektron Hökumət" portalı üzərindən vətəndaşlar üçün əlçatandır.**

Portalın vətəndaşlara göstərdiyi belə xidmətlərdən biri "Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi"dir. Bu xidmətdən vətəndaşlar aktiv şəkildə istifadə edirlər və oktyabr ayının statistik göstəricilərinə əsasən bu xidmətdən 42911 dəfə istifadə olunmuşdur. Sözügedən xidmət vasitəsilə vətəndaşlar əmək müqaviləsi üzrə əks olunan məlumatlarla tanış ola, həmçinin bildirişi pdf formatında kompüterinə yükləyə bilərlər.

Bu xidmət ƏƏSMN-nin "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi" elektron xidməti əsasında yaradılmış informasiya sistemi əsasında formalaşdırılmışdır. 2014-cü ildən etibarən, işə götürənlər qarşısında qoyulan əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması tələbi işçi hüquqlarının qorunması habelə, vergidən yayınma kimi xoşa gəlməz halların aradan qaldırılmasına xidmət edir. Qeyd edək ki, oktyabr ayı ərzində sözügedən xidmətdən 126909 dəfə istifadə olunub.

"Elektron Hökumət" portalı 2012-ci ildən etibarən artıq 3 ildir ki, fərdi məlumatlar üzrə informasiya sistemlərinin müvafiq standartlara uyğunlaşdırılması və portala inteqrasiyası üzərində işləyir. Bu gün portal üzərindən təqdim edilən əmək müqaviləsi bildirişləri, iş yerinə dair çıxarışlar(arayış) məhz davam etməkdə olan bu fəaliyyətin nəticəsidir.

# E-hökumət portalı öz istifadəçilərinin rəy və təkliflərinə daima önəm verir




**Sivil idarəetmə metodunu özündə təcəssüm etdirən "Elektron Hökumət"in inkşafında vətəndaşın rolu çox böyükdür. Daim innovativ yeniliklərlə təkmilləşən "Elektron Hökumət" portalında yaradılan "fikir bankı" adlı funksionallıq portal istifadəçilərinin rəy və təkliflərini nəzərə almaq üçün yaradılıb.**

Portalın daha da təkmilləşdirilməsinə maraq göstərən istifadəçilər "Elektron Hökumət" quruculuğu üzrə təkliflərini, ideyalarını bildirmək üçün əsasən bu funksiyadan yararlanırlar. Məsələn, keçən dövr ərzində Fikir Bankında 206 müraciət qeydə alınıb və onlardan 129-u təklif olaraq qəbul edilib. Portalın səhifəsində görünən bu təkliflərə ziyarətçilər "bəyəndim", "bəyənmədim" adlı düymədən istifadə edərək münasibət bildirə, yaxud diqqətini çəkən istənilən təklifə şərh bölməsində öz münasibətlərini qeyd edə bilərlər. Həmçinin, istifadəçilər təkliflər içərisindən "ən son əlavə olunanlar" və "ən reytinqlilər"i görə və ən çox bəyənilən ideyaları müəyyənləşdirə bilirlər. Nümunə üçün qeyd edə bilərik ki, 12 fevral 2015-ci il tarxində Məmmədov Şamil adlı istifadəçi tərəfindən göndərilən və hazırda ən çox reytinq toplayan "Vətəndaşın adına olan bütün kredit ödənişlərinin, cərimələrin, kommunal ödəmələrin portal tərəfindən təqdim olunan "Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi" xidmətində əks olunması" təklifi 12181 dəfə bəyənilib. Ən çox təklif olunan bu xidmət "Mərkəzi Bankın kredit reyestr xidmətinin fərdi qaydada portalda yerlesdirilməsi" ilə bağlıdır. Vətəndaşlar özlərinə aid kredit tarixçələri ilə əlaqədar banka müraciət etmədən portal vasitəsilə xəbər tutmaq istəyirlər. Qeyd edək ki, fikir bankına olan maraq yəni, bir təklifi 12181 nəfərin bəyənməsi, 3604 nəfərin inkar etməsi vətəndaşların "Elektron Hökumət" quruculuğunda aktiv iştirak etməyə səy göstərməsinə bariz nümunədir.

Ən son əlavə olunan təklif isə 2015-ci il noyabrın 11 də qeydə alınan "Pensiyaçılar haqqında elektron arayışın olması" təklifidir.

Qeyd edək ki, qəbul edilən müraciətlərdən 12-si artıq reallaşıb, portalın marağına səbəb olan 15 fikir, o cümlədən bəyənilmə sayına görə liderlik edən "Mərkəzi Bankın kredit reyestr xidmətinin portalda yerləşdirilməsi" xidmətinin reallaşdırılması üçün işlər aparılır.

Təklif göndərmək isə çox sadədir. Bunun üçün portalın ana səhifəsində yerləşdirilmiş "Fikir bankı"na daxil olmaqla (https://www.e-gov.az/teklifler/) yuxarıda sarı rəngdə verilmiş "təklif göndər" linkinə klikləməklə açılan yeni səhifədə şəxsiyyət vəsiqənizin FİN-ni, adınızı, soyadınızı, elektron poçt ünvanınızı və əlaqə nömrənizi qeyd edib, təklifinizin istiqamətini müəyyənləşdirərək, 3500 simvoldan ibarət təklifinizi daxil edə, yaxud hazırladığınız videonu təhlükəsizlik kodunu qeyd etdikdən sonra göndərə bilərsiniz.

"Elektron Hökumət" bürokratik hallarının aradan qaldırılması, vətəndaşlara şəffaf və rahat xidmət göstərilməsi üçün ən optimal və innovativ həlldir. Bu şəffaf xidmət platformasının məqsədyönlü inkişafı üçün cərəyan edən proseslərdə cəmiyyətin aktiv iştirakı olduqca vacibdir. "Fikir Bankı" isə bu iştirakı təmin edəcək vasitələrdən yalnız biridir.

# "Elektron Hökumət" portalına qoşulmaqla bağlı daha bir bank öz istəyini bildirdi

**"Elektron Hökumət" portalı xidmət məkanı olmaqla yanaşı, fərdin identifikasiyası sistemi (identity scoring) rolunu da oynayır. Bu gün portal vasitəsilə vətəndaş özünə məxsus 11 növ məlumatı rahatlıqla bir neçə saniyədə formalaşdırıb tələb olunan müəssisəyə elektron və kağız şəklində göndərmək imkanına sahibdir.**

Hələ bir il öncə təməli qoyulan "Elektron arayışlar" bölməsinə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən "İl ərzində rabitə xidmətləri üzrə ödənişlər haqqında "çıxarış (arayış) əlavə edildi. Portala yaxın gələcəkdə əlavə olunacaq bu məzmunlu çıxarışlar vətəndaşa məxsus bir çox məlumatların vətəndaşın özü tərəfindən əldə olunmasını və öz məlumatlarından müvafiq məqsədlə istifadəni mümkün edir.

AFBBANK

Hazırda, belə istifadə real əksini daha çox kredit müraciətlərində tapmışdır. Belə ki, bu gün 25-dən artıq bank vətəndaşlardan fərdi məlumatları üzrə kağız daşıyıcıda sənəd tələbini ləğv etmişdir. Belə bankların sırasına "AFB" Bank ASC-də qoşulmaqdadır. Sözügedən bankla keçirilmiş toplantıda vətəndaşın ödəmə qabiliyyətinin kağız üzərində sənəd tələbi olmadan müəyyənləşdirilməsi üçün portalın imkanları müzakirə edilmiş, bu imkanlardan "AFB Bank" müştərilərinin faydalanması üçün qanunvericiliklə müəyyən olunmuş qaydalar və texniki dəstək üzrə məsələlərdən danışılmışdır.

# Mobil Hökumət Elektron Hökuməti əvəz edə biləcəkmi?

Ölkəmizdə mobil rabitənin yüksək səviyyədə inkişaf etməsi "Elektron Hökumət"in mobil versiyasının yaradılmasını və vətəndaşların mobil cihazların köməyi ilə onlayn rejimdə elektron xidmətlərdən istifadə etməsini şərtləndirdi. Artıq ən aktual xidmətlərdən smartfonla, planşetlə, həmçinin ənənəvi mobil telefonla müvafiq autentifikasiya vasitələri (kod/parol, e-imza) ilə mobil tətbiqə daxil olub istifadə etmək mümkündür. Qeyd edək ki, mobil versiyada təqdim olunan xidmətlərin sayı bu gün 20-yə qədər olsa da, bu rəqəmin artırılması planlaşdırılır. Bir sözlə Mobil əlavə "Elektron Hökumət"in inkşafı üçün atılmış növbəti addımdır.

**Bəs "Mobil Hökumət" nədir?**

"Mobil Hökumət" – "Elekrton Hökumət"in mobil platformaya daşınması mümkün və əlverişli olan xidmətlərindən yaşından, sosial statusundan, təhsilindən, yaşayış yerindən asılı olmayaraq geniş kütlənin istifadə edə bilməsini təmin edən və hər kəs üçün əlçatan olan rahat yoldur. Bir sözlə "Sən hardasansa xidmət ordadır". İnsanlar xidmətin dalınca getmir, xidmət onların ayağına gəlir. Bu əhaliyə göstərilən xidmətin yeni, əlavə modelidir və XXI əsrin vətəndaşlarını qane etmək üçün innovativ idarəetmə formasıdır.

**Mobil əlavə vasitəsilə hansı xidmətlərdən istifadə etmək mümkündür?**

Statistikaya görə elektron arayışlar(çıxarışlar) portalda ən çox istifadə olunan xidmətlərdəndir. Buna görə də sosial tələbatın çox olduğu elektron çıxarışların mobil əlavəsi yaradıldı. Hazırda adları aşağıda verilən elektron arayışları(çıxarış) vətəndaşlar mobil telefonlarından istifadə edərək formalaşdırıb adiyyatı quruma göndərə bilərlər:

- Şəxsiyyət vəsiqəsi məlumatları üzrə arayış
- Yaşayış yeri haqqında arayış
- Diplom haqqında arayış
- Ümumtəhsil məktəbləri şagirdlərinin təhsil aldıqları yer haqqında elektron arayış
- Vətəndaş haqqında "tələbə məzun" dövlət elektron məlumat sistemindən çıxarış
- Rabitə xidmətlərinə görə borcun olmaması barədə arayış

Qeyd edək ki, qurumlar özləri də tədricən öz elektron xidmətlərinin mobil əlavəsini hazırlamaqda maraqlıdırlar. Onlardan bir neçəsi artıq "Elektron Hökumət" portalı üzərindən mobil əlavəsini vətəndaşların istifadəsinə verib.

Vətəndaşların marağında olan bu mobil xidmətlər aşağıdakılardır:

- DİN FİN-ə görə fərdi məlumatların axtarışı
- RYTN Mobil cihazların İMEİ kodunun yoxlanılması
- SN İmmunoprofilaktika üzrə məlumatların verilməsi (peyvəndlər barədə məlumat) və s.

Mobil əlavədə xidmətlərlə yanaşı vətəndaşın "Elektron Hökumət Portalı"nın "Elektron Ödənişlər" xidməti (https://www.e-gov.az/az/services/readwidenew/3425) vasitəsilə əlavə etdiyi ödəniş xidmətləri barədə məlumatlandırma hissəsi də vardır. Bu bölmədə vətəndaş bir




çox xidmətlər üzrə borc məlumatlarını əldə edə bilir. Eyni zamanda bu xidmətlər üçün bildiriş almağı aktiv etdikdə, ödənişlər barədə borclar və ödəmə bildirişlərini də vaxtaşırı əldə etmık mümkündür.

**Mobil hökumət "Elektron Hökumət"i əvəz edəcəkmi?**

Mobil hökumət bu gün yalnız "Elektron Hökumət" texnologiyasının əlçatmaz olduğu yerlərə nüfuz edir. Əlbəttə ki, mobil xidmətlər elektron xidmətlə müqayisədə daha böyük əraziləri əhatə edir. Bu da o deməkdir ki, mobil xidmətlərdən elektron xidmətlərə nisbətən daha çox sayda insanlar istifadə edir. Kompüter müəyyən olunmuş yerə aiddir, evdə, işdə və s. Mobil çihazlar isə hər zaman istifadəçinin yanındadır. Bu müqayisəni davam etdirmək də olar. Məsələn:

**Mobil cihaz:**

- Ucuzdur
- Demək olar ki, hamıda var
- Yaşlı insanlara və İKT savadı olmayan insanlara mənimsəmək daha asandır

**Kompüter:**

- Daha geniş imkanları var
- Daha rahat istifadəçi interfeys, böyük ekran, və rahat klaviaturaya malikdir
- Kompüter hamıda yoxdur

Statistikaya görə mobil əlavələrdən insanlar daha çox ödəmələr, sifariş etmək və s kimi təcili sosial tələbatları ödəmək məqsədilə istifadə edirlər. Məsələn, mobil hökumətin inkişaf etdiyi Estoniyada mobil xidmətlərdən daha çox parklama, nəqliyyata bilet sifariş etmək və s. üçün SMS-lər göndərilir. Lisenziya alma, qeydiyyata düşmə, nigaha daxil olma və s. kimi xidmətlərdən isə vətəndaşlar "Elektron Hökumət" portalı vasitəsilə yararlanırlar. Mütəxəssislərin fikrincə bu müqayisələr onu deməyə əsas verir ki, mobil hökumət "Elektron Hökuməti" tam şəkildə əvəz etməyəcək və paralel olaraq hər ikisindən istifadə olunacaq.

www.e-gov.az

# Startap Günləri keçirilib

**Yüksək Texnologiyalar Parkında Startup Günləri keçirilib. Üç gün davam edən Startap Günlərinin keçirilməsində məqsəd ölkədə yeni startupların yaradılmasına kömək etmək, bu istiqamətdə onlara informasiya-metodiki dəstək vermək, internet biznesinin inkişafına təkan vermək, eləcə də, milli startup infrastrukturunun inkişaf etdirməkdən ibarətdir.**

Tədbirdə çıxış edən Rabitə və Yüksək Texnologiyalar Nazirinin müavini Elmir Vəlizadə startapçıların fəaliyyətinin bu gün diqqət mərkəzində olduğunu və ölkədə bu istiqamətdə əməlli addımların atılması üçün məqsədyönlü siyasətin həyata keçirildiyini vurğulayıb. Bu baxımdan, Startap Günlərinin əhəmiyyətini qeyd edən nazir müavini ideya üzrə keçirilən müsabiqələrin mövcud informasiya resurslarından qənaətli və səmərəli istifadəni təmin edəcəyini söyləyib.

Nazir müavini ali məktəb nümayəndələrinin bu gün özlərinin texno-parklarını yaratdığını və ölkədə gedən bu prosesə töhfə verdiyini bildirib. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin İnformasiya Texnologiyaların İnkişafı Dövlət Fondunun və Yüksək Texnologiyalar Parkının bu istiqamətdə startapçılara hərtərəfli dəstək olduğunu və bu istiqamətdə gələcəkdə daha böyük layihələrin həyata keçirilməsi üçün inkubator rolunu oynadığını xatırladıb. Nazir müavini Budapeştdə "ITU Telecom World 2015” sərgisində Azərbaycandan 4 startap layihəsinin iştirak etdiyini və onlardan birinin qalib gəldiyini, daha bir milli layihənin isə dünya səviyyəsində 2-ci yerə çıxdığını söyləyib. Bu potensialın aşkarlanmasının önəmli olduğunu qeyd edən E.Vəlizadə startapçıları təşəbbüskar olmağa, idayalarının reallaşdırılması uğrunda daha əzimkar olmağa səsləyib.

Qeyd edək ki, Startap Günləri çərçivəsində "Yeni startapların yaranmasında biznes inkubatorların və universitetlərin rolu" mövzusunda konfrans və yeni başlayan startapçılar üçün beynəlxalq ekspertin iştirakı ilə təlimlər keçirilib.

# Rabitə, kommunal və cərimə haqları üzrə bildirişləri artıq mobil telefon vasitəsilə əldə etmək mümkündür

Bildiyiniz kimi, artıq "İOS" əməliyyat sisteminin istifadəçiləri "Elektron hökumət" portalının mobl versiyasından yararlana bilirlər. Bu gün portalın mobil tətbiqi vasitəsilə 18 sosial xidməti, sadəcə, mobil telefona daxil olmaqla əldə etmək mümkündür. Belə xidmətlərin arasında portal istifadəçilərinin təklifləri əsasında yaradılan "Elektron arayışlar" bölməsi də mövcuddur. Mobil versiya vasitəsilə "e-gov.az" istifadəçilərinin daha bir təklifi də reallaşdırıldı. Belə ki, "e-gov.az" istifadəçilərinin rabitə, kommunal, cərimə və s. xidmətlər üzrə bildirişləri sistem tərəfindən avtomatik mobil telefona yönləndirilir.




**Rabitə, kommunal, cərimə haqları üzrə bildirişləri mobil telefona necə yönləndirməli?**

Bunun üçün, istifadəçi "Elektron hökumət" portalında "Onlayn ödənişlər" bölməsinə daxil olmalı, sonra Kommunal, Rabitə, İpoteka, Büdcə bölmələri üzrə istənilən xidməti formalaşdırmaqla yadda saxlamalıdır. Sonrakı mərhələdə, portala mobil əlavə vasitəsi ilə daxil olmalı, bildirişlər bölməsinə keçilməli, yadda saxlanan hər bir xidmətin bildirişləri ayrı-ayrılıqda aktiv edilməlidir.

Bundan əlavə, portalın mobil versiyasının istifadəçiləri isə "Elektron hökumət" üzrə yeniliklərdən daha tez xəbər tuta biləcəklər. Belə ki, portalın "Xəbərlər" bölməsinə əlavə edilən hər bir yenilik barədə mobil tətbiq istifadəçisinə sistem tərəfindən avtomatik bildiriş göndəriləcək.

**"Elektron Hökumət" portalının mobil əlavəsi vasitəsilə vətəndaşa olduğu yerdəcə əlçatan edilmiş xidmətlər**

Artıq ictimai tələbatın yüksək olduğu aşağıdakı elektron çıxarışlardan(arayışlardan) vətəndaş işlədiyi, istirahət etdiyi, səyahət etdiyi yerdəcə istifadə edə bilər:

- Şəxsiyyət vəsiqəsi məlumatları üzrə arayış
- Yaşayış yeri haqqında arayış
- Diplom haqqında arayış
- Ümumtəhsil məktəbləri şagirdlərinin təhsil aldıqları yer haqqında elektron arayış
- Vətəndaş haqqında “tələbə-məzun” dövlət elektron məlumat sistemindən çıxarış
- Rabitə xidmətlərinə görə borcun olmaması barədə arayış

İndi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 6 adda xidməti vətəndaşa öz mobil telefonu qədər yaxındır.

Bununla yanaşı, "Elektron Hökumət" portalının mobil versiyasından istifadə etməklə vətəndaş şəxsiyyət vəsiqəsinin elektron versiyasını daim üzərində daşıyacaq. Bu xidmət Daxili İşlər Nazirliyinin "FİN-ə görə fərdi məlumatların axtarışı" servisi vasitəsilə təmin edilir.

Vətəndaşlar Səhiyyə Nazirliyinin 3, Ədliyyə Nazirliyinin isə 1 elektron xidmətini hazırda mobil telefon üzərindən əldə edə bilərlər.

# Artıq hər kəs tibbi müayinə barədə məlumatı "Elektron Hökumət" portalından əldə edə biləcək

İKT-nin inkişafı bu gün ölkəmizdə fərdə aid bir çox məlumatların elektron mühitdən əldə edilməsini mümkün edib. "Elektron Hökumət" portalında və qurumların səhifələrində açıq edilmiş bu növ xidmətlər sayəsində kağız daşıyıcıda olan sənədlər eyni mənbədən daha rahat, daha şəffaf və eyni zamanda etibarlı olan elektron sənədlərlə əvəz edilir.

Bu baxımdan, vahid elektron xidmət məkanı olan "Elektron Hökumət" portalı hər ötən gün zənginləşməkdədir. Belə ki, yeni iş həftəsindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən portala tibbi müayinə məlumatları ilə bağlı yeni elektron xidmət inteqrasiya olunmuşdur. Sözügedən "Tibbi-Sosial Ekspert Komissiyaları tərəfindən keçirilmiş müayinə barədə məlumatın verilməsi" elektron xidməti onlayn rejimdə istifadəçini keçdiyi müayinələr barədə məlumatlarla təmin edəcəkdir.

**"Tibbi-Sosial Ekspert Komissiyaları tərəfindən keçirilmiş müayinə barədə məlumatın verilməsi" elektron xidmətindən istifadə etmək üçün,**

https://www.e-gov.az/ ünvanı vasitəsilə "Elektron Hökumət" portalına daxil olmaq, daha sonra, E-XİDMƏTLƏR bölməsində BÜTÜN XİDMƏTLƏR düyməsini seçmək lazımdır.

Növbəti mərhələdə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron xidmətləri siyahısından "Tibbi-Sosial Ekspert Komissiyaları tərəfindən keçirilmiş müayinə barədə məlumatın verilməsi" elektron xidmətini seçərək autentifikasiya vasitələrindən birini istifadə etməklə portala giriş etmək lazımdır.

Vətəndaş özü ilə bağlı sistemdə olan müayinələri "Müayinələrin reyestri" menyusunda görə bilər. Bu reyestrdə bildirişin nömrəsi, müayinə tarixi, təyinat tarixi, növbəti müayinə tarixi, əlillik qrupu, əlillik növü barədə məlumatlar əks olunacaq. İstifadəçi xidmətdən istifadə etməklə çıxarışını əldə etmək üçün müvafiq müayinəni qeyd edərək, çıxarışı yüklə düyməsini seçməklə faylı kompüterinə yükləyə bilir.

Bu xidmət vasitəsilə mövcud çıxarışın yoxlanılması da mümkün edilmişdir. Belə ki, müayinələrin reyestrindən əldə edilmiş çıxarışlar istənilən yerə təqdim edildikdə "çıxarışın yoxlanılması" menyusunda (müvafiq sahəyə çıxarışın nömrəsini və tələb olunan əməliyyatın nəticəsini qeyd edilməklə) yoxlanıla bilər.

Bundan əlavə sözü gedən xidmətdə "çıxarışların tarixçəsi", "mənim yoxladığım çıxarışlar" və "mənim yoxlanılan çıxarışlarım" bölmələri mövcuddur. Sistem üzərindən əldə edilən bütün çıxarışlar barədə məlumatlar "çıxarışların tarixçəsi"ndə əks olunur. "Mənim yoxladığım çıxarışlar" bölməsində yoxlanılan çıxarışların nömrəsi, aid olduğu şəxs, yoxlanılan tarixlə bağlı məlumatlar qeyd olunur. "Mənim çıxarışlarımı yoxlayanlar" bölməsi vasitəsilə isə vətəndaş sistem üzərindən əldə olunan çıxarışların kim



tərəfindən yoxlanıldığı barədə məlumatları əldə edəcəkdir.

"Elektron Hökumət" portalı üzərindən təqdim olunan xidmətlərin istifadə statistikasına hər bir istifadəçi baxa biləcək

Elektron idarəçilik informasiya və kommunikasiya texnologiyalarından faydalanmaqla xidmət təminatının sadələşdirilməsi üzrə tətbiq olunan köklü islahatdır.

Elektron hökumətin əsas məqsədi vətəndaşlara bütün həyatları boyu onlara lazım olan sosial xidmətlərin elektron şəkildə təminatı məsələsidir. İdarəçilikdə rahatlığı, effektivliyi, şəffaflığı  və cavabdehliyi təmin edən bu proses hökumət xidmətlərini vətəndaşlar üçün əlçatan edir.

Respublikamızda sürətlə inkişaf edən sosial xidmətlərin elektronlaşdırılması prosesi keyfiyyətli xidmətlərlə yanaşı müxtəlif məzmunda fərdi informasiyanı cəmiyyətə açıq edir. Bu baxımdan  "Elektron Hökumət" infrastrukturunun əsas komponenti kimi elektron xidmət məkanı olan portalın rolu əvəz edilməzdir.

431 elektron xidməti "vahid pəncərə" prinsipi ilə təqdim edən "Elektron Hökumət" portalı (https://www.e-gov.az/) bu gün sadələşdirilməklə daha da şəffaflaşdırılır. Şəffaflıq istiqamətində portalın reallaşdırdığı təşəbbüslərin sırasına bir yenilik  də əlavə olundu.

Belə ki, bu gün "Elektron Hökumət" portalı üzərindən təqdim olunan xidmətlərdən istifadə statistikası xidmət təminatçıları ilə yanaşı istifadəçilərin də maraq dairəsindədir.

Göründüyü kimi artıq portal istifadəçiləri hər bir xidmət üzrə gün ərzində, həftə ərzində, ay ərzində və ümumi istifadə sayına onlayn rejimdə baxa biləcəklər. Düşünürük ki, elektron xidmətlərin istifadə statistikasının açıq edilməsi aktual istifadə olunan xidmətləri önə çəkməklə bərabər, həmçinin qurumlar arasında rəqabət mühiti formalaşdırmış olacaq.

***Əziz portal istifadəçiləri və elektron xidmətlərdən istifadəni cəmiyyətə təbliğ edən KİV əməkdaşları!***

Artıq portal üzrə 431 elektron xidmətin əməli fəaliyyəti göz önündədir. Ümid edirik ki, portalın bu təşəbbüsü sosial xidmət təminatı məsələsinin inkişafına xeyli təkan verəcək.

www.e-gov.az

## 01.11.2015 – 30.11.2015-ci il dövrü ərzində “Elektron Hökumət” portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi | RYTN | 139411 |
| 2 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | ƏƏSMN | 120220 |
| 3 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 66230 |
| 4 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 50863 |
| 5 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 49457 |
| 6 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | ƏƏSMN | 32943 |
| 7 | İş yerinə dair arayış | ƏƏSMN | 25570 |
| 8 | Portal üzərindən istifadəçi qeydiyyatı | Elektron Arayışlar | 21663 |
| 9 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 21216 |
| 10 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 18291 |
| 11 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 17165 |
| 12 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 12983 |
| 13 | Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 12162 |
| 14 | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 11250 |
| 15 | Vətəndaşa aid fərdi məlumatlar üzrə arayış | Elektron Arayışlar | 9593 |
| 16 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 8831 |
| 17 | Elektron ödənişlər | RYTN | 6514 |
| 18 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 5596 |
| 19 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | TQDK | 4428 |
| 20 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 3665 |

## 01.12.2015-ci il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 82 | 169 | 251 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 30.11.2015 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 23484 | 6801 | 7873 | 38158 |

## 2015-ci ilin noyabr ayı ərzində bütün qurumlar üzrə “Elektron Hökumət” portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 45 | 345021 |
| 2 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 7 | 182346 |
| 3 | Dövlət Sosial Müdafiə Fondu | 17 | 102497 |
| 4 | Elektron Arayışlar | 13 | 44358 |
| 5 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 16 | 7418 |
| 6 | Daxili İşlər Nazirliyi | 3 | 3984 |
| 7 | Mərkəzi Seçki Komissiyası | 7 | 2341 |
| 8 | Təhsil Nazirliyi | 5 | 2116 |
| 9 | "Azərsu" ASC | 5 | 1364 |
| 10 | Dövlət Gömrük Komitəsi | 8 | 1281 |
| 11 | Əmlak Məsələləri Dövlət Komitəsi | 4 | 1247 |
| 12 | “Azərişıq” ASC | 1 | 1161 |
| 13 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 5 | 587 |
| 14 | Səhiyyə Nazirliyi | 6 | 499 |
| 15 | Mədəniyyət və Turizm Nazirliyi | 12 | 486 |
| 16 | Milli Arxiv İdarəsi | 2 | 283 |
| 17 | Satınalmalar üzrə Dövlət Agentliyi | 8 | 282 |
| 18 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 251 |
| 19 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 237 |
| 20 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 176 |
| 21 | "AzərEnerji" ASC | 1 | 175 |
| 22 | Ədliyyə Nazirliyi | 2 | 175 |
| 23 | Kənd Təsərrüfatı Nazirliyi | 19 | 137 |
| 24 | Gənclər və İdman Nazirliyi | 5 | 129 |
| 25 | Dövlət Statistika Komitəsi | 3 | 128 |
| 26 | Vergilər Nazirliyi | 6 | 116 |
| 27 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 11 | 114 |
| 28 | Nəqliyyat Nazirliyi | 4 | 101 |
| 29 | Fövqəladə Hallar Nazirliyi | 3 | 86 |
| 30 | Dövlət Miqrasiya Xidməti | 1 | 84 |
| 31 | Dövlət Sərhəd Xidməti | 3 | 64 |
| 32 | Baş Prokurorluq | 1 | 54 |
| 33 | Dövlət Dəniz Administrasiyası | 16 | 51 |
| 34 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 40 |
| 35 | İqtisadiyyat və Sənaye Nazirliyi | 1 | 35 |
| 36 | Xarici İşlər Nazirliyi | 1 | 33 |
| 37 | Energetika Nazirliyi | 5 | 31 |
| 38 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 1 | 31 |
| 39 | Müəllif Hüquqları Agentliyi | 5 | 29 |
| 40 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 11 | 26 |
| 41 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 24 |
| 42 | Müdafiə Sənayesi Nazirliyi | 2 | 19 |
| 43 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 14 |
| 44 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 14 |
| | **CƏMİ** | **292** | **699645** |

www.e-gov.az

## "E-hökumət" portalında olan e-xidmətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş siyahı ilə

# MÜQAYİSƏLİ TƏHLİLİ

*01.12.2015*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 26 | 1 | 3 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 25 | 17 | 17 | 15 | 21 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 7 |
| 6 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 7 | 8 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 62 | 58 | 59 | 60 | 60 |
| 8 | Energetika Nazirliyi | 8 | 5 | 5 | 5 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 15 | 12 | 13 | 15 | 14 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 15 | 13 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 18 | 18 | 36 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 4 | 13 | 10 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 4 | 6 | 16 | 7 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 32 | 33 | 30 | 30 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 16 | 36 | 26 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 6 | 6 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 0 | 0 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 4 | 8 | 14 | 11 |
| 23 | Əmlak Məsələləri Dövlət Komitəsi | 36 | 26 | 31 | 31 | 26 |
| 24 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 25 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 26 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 6 | 6 |
| 27 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 28 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 29 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 16 | 17 | 21 | 21 |
| 30 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 6 | 6 | 7 | 7 |
| 31 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 14 | 15 | 14 | 14 |
| 32 | Dövlət Miqrasiya Xidməti | 11 | 10 | 10 | 11 | 11 |
| 33 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 34 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 4 | 4 | 5 | 5 |
| 35 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 1 | 8 | 3 | 2 |
| 38 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 39 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 40 | Dövlət Dəniz Administrasiyası | 19 | 18 | 18 | 18 | 18 |
| 41 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 2 | 2 |
| | **CƏMİ:** | **462** | **345** | **407** | **483** | **418** |

| | DÖVLƏT QURUMUNUN ADI | | |
|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | 2 | 2 | |
| 2 | "Azərsu" ASC | 4 | 5 | |
| 3 | "Azərenerji" ASC | 1 | 1 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | 6 | 7 | |
| 5 | Baş Prokurorluq | 1 | 1 | |
| 6 | Biləsuvar Rayon İcra Hakimiyyəti | 1 | 2 | |
| 7 | "Azərişıq" ASC | 2 | 5 | |
| 8 | Elektron Arayışlar | 7 | | |
| | **CƏMİ:** | **24** | **23** | |

| **YEKUN** | **462** | **345** | **431** | **506** | **418** |
|---|---|---|---|---|---|

# “Elektron Hökumət” portalına daxil olanların sayı 2 642 978 nəfərə çatdı

2.642.978 people visited this site ŞƏKİL 1




Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) “Elektron Hökumət” portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2015-ci ilin noyabr ayının 30-a qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 9,856,018 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 2,642,978 nəfər olub. Belə ki, 2,642,978 nəfər ümumən 9,856,018 dəfə portala baxıb və 17,624,184 dəfə elektron xidmətlərə müraciət ediblər. Həmin şəxslər 34,386,247 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 22 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 26.8%-ni yeni istifadəçilər, 73.2%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Noyabr ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 327,781 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 103,784 nəfər olub. Həmin şəxslər 1,310,833 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 699,645 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 36 saniyə təşkil edib. Noyabr ayı ərzində portala müraciət edənlərin 21.1%-ni yeni istifadəçilər, 78.9%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 365,916-ya çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 432 olub.

103.784 people visited this site ŞƏKİL 2




© 2015 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Nəsimi r-nu, Dilarə Əliyeva küç., 185
Tel.: 157; Email: office@rabita.az